# Müəllim ömrü

*Bizimlə həmyaşdır, bitməz, tükənməz,*
*Bizimlə yol gedər müəllim ömrü.*
*Ömründən pay verib hər kəsə bir az,*
*Məndədir, səndədir müəllim ömrü.*

**Ziyalılar - müqəddəslik, haqq-ədalət, müdriklik, Vətənə, xalqa sonsuz məhəbbət mücəssəməsi olsalar, əsl şəxsiyyət kimi tarixdə yaşayarlar! Belə şərəfli, cəmiyyətin aparıcı qüvvəsi olan insanların mənəvi dünyasını zənginləşdirən, onlara hər zaman qayğı göstərən, ağsaqqallıq edən, elmi biliyini gənclərə həvəslə aşılayan ləyaqətli bir ömür sürüb Nəcəf müəllim. Nəsillərin gələcəyi barədə böyük düşünən şəxsiyyətin - Nəcəf Nəcəfovun mənəviyyatı fəxarət doğurur. Ömrünü gənc nəslin təlim-tərbiyəsinə həsr etmiş Nəcəf müəllimi düşünərkən onun mənəvi dünyasının saflığına, insanlıq xüsusiyyətinin yüksək ideallarına xidmətini, insanın mükəmməllik və bütövlüyə aparan milli-mənəvi dəyərləri özündə birləşdirən bu gözəl şəxsiyyətin həyat yolu həm əsl ziyalılar üçün, həm də həyat yolunu düzgün seçmək arzusu ilə yaşayan gənclərimizə bir örnəkdir.**

Pedaqoji ictimaiyyətimizin iftixarla andığı, dəyər verdiyi, adı millətimizin təhsil tarixinə şərəflə yazılan insanlardan biri olan Nəcəf müəllim yaşlı nəslə aid edilsə də, onun fəaliyyəti, yaradıcılığı ədəbi-bədii əsərləri böyük tədqiqat mənbəyidir. Mən deyərdim ki, o, təəsüf ki, ən coşqun bir fəaliyyət dövründə dünyasını dəyişdi. Nəcəf müəllim həyatının son anlarına kimi yaşayıb-yaradırdı. Bir dost kimi, bir sədaqətli insan kimi onu həmişə xeyirxah əməllərlə məşğul olan görərdim. Filologiya üzrə fəlsəfə doktoru Nəcəf Nəcəfov çoxsaylı elmi məqalələrin, monoqrafiyaların, pedaqoji kadrların üz tutduğu dəyərli əsərlərin, tədqiqatı yaradıcılıq nümunələrinin müəllifi idi. Ən başlıcası, dünyanın əşrəfi insana xas olan, gözəl mübarək insani simasını, milli-mənəvi əxlaqi dəyərlərini heç vaxt itirməzdi. Tələbələrinə hər şeydən öncə dərin biliyə yiyələnməyi, əsl insan olmağı, Azərbaycan xalqının milli-mənəvi əxlaqi dəyərlərini əxz edərək, doğma vətənimizin mənəviyyatlı, vətənpərvər, dərin düşüncəli, mərifətli və əxlaqi dəyərlərə yiyələnmiş gənclər kimi tərbiyə olunmasına çalışırdı.

Vətən torpağına sevgi əkən, ocağının qorunu gözü üstündə saxlayan hər kəs şərəflənər. Vətənpərvərlik-vətənini və xalqını sevənlərin hiss və duyğularını özündə təcəssüm etdirən böyük dəyər kimi, Nəcəf müəllimin ömrünün gənclik çağlarından ixtiyar zamanınadək bir həyat devizi olmuşdur. Azərbaycançılığı, Vətənə məhəbbəti, el-obasını, ata-anasını, dost yoldaşını qəlbən sevindirmək onun ən böyük arzusu idi. Söhbətlər zamanı Nəcəf müəllim yana-yana deyirdi ki, milli-mənəvi, əxlaqi dəyərlərini itirən xalq həmişə məğlub olar! Ona görə də Vətəni Ana kimi sevmək hər kəsin vətəndaşlıq borcudur. Vətənpərvərlik xalqımızın qan yaddaşı ilə zənginləşəndə möhtəşəm olur. Zaman keçdikcə bu böyük bəşəri hisslər millətimizin, xalqımızın, gənclərimizin həyatında başlıca meyar olur, xarakter kimi formalaşır. Nəsillərin fəaliyyətinin fövqündə bu bəşəri duyğuları hər zaman saxlamaq, onu nurlandırmaq nəsillərin zehninə köçürmək biz ziyalıların müqəddəs borcudur.

**Dəyərli ziyalılarımız, yaxşı adam, əsl insani xüsusiyyətləri özündə birləşdirən şəxslər cəmiyyətimizin mənəvi sərvətidir. Məhz Nəcəf müəllim özü də belə şəxsiyyətlərdən idi. Həyatın gözəlliyi olan halallıq, yüksək insani xüsusiyyətlər mərdlik, sədaqətlik, zəhmətkeşlik, həmişə haqq-ədaləti, həqiqəti insan bütövlüyü kimi şərtləndirən mənəvi dəyərləri başının üstündə saxlayardı. Dostyana söhbətlər zamanı Nəcəf müəllim ətrafında olanlara həyatda mərd yaşamağı, kişiliyi şərtləndirən amillər sırasında müdriklik, sədaqətlik, səxavətlilik, mərdlik kimi xüsusi əhəmiyyət kəsb edən dəyərlərə diqqət yetirir, keçdiyi olduqca zəngin keşməkeşli və ziqzaqlı həyat yolundan gətirdiyi misalları, qarşılaşdığı ibrətamiz anları dost-yoldaşla bölüşərdi. Onun dəyərli sözlərindən biri "tikan əkən üzüm dəyməz, deyərdi. Böyük iradə və yüksək əxlaqi keyfiyyətlər vicdanı saflaşdırır. Xoş söz həmişə ürəklərə qapıdır. Axı insan ömrü nə qədərdir ki?! Odur ki, tanrının hər kəsə bəxş etdiyi bu mübarək ömrü şərəflə, ləyaqətlə, insana xas olan gözəl məramlarla yaşamaq üçün xeyirli fikrə, xeyirli sözə, xeyirli arzulara, xoş əməllərə aparan münasibətlərə, qarşılıqlı anlaşmalara rəvac verməyi arzulayardı. Müdrikcəsinə deyirdi ki, həyatınızı çalışın xoş və mənalı keçirin ki, nurlu bir ömür qismətiniz olsun. Gələcək nəsillərə sizin xeyirxah işlərinizdən, yaxşı əməllərinizdən, bariz insanı keyfiyyətlərinizdən xatirələr qalsın.**




Nəcəf müəllimlə iş birliyində olanda, hər kəs zövq alardı, lakin onun son dərəcə ciddi tələbkarlığından əziyyət çəksən də, nəticəsi olduqca sevindirici ovqatlar bəxş edirdi. Nəcəf müəllim deyərdi ki, haqqvarlıq deməkdir. İnsan o kəsdir ki, haqqı görə, sevə və ona güvənə. Şəxsiyyəti nurlandıran insanın gözəl qəlbidir. Nəcəf müəllimin qəlbinin gözəlliyi, yüksək insani keyfiyyətləri onun söhbətlərində, yazdığı ədəbi-bədii əsərlərində, elmi rəylərdə, qələmindən çıxmış yaradıcılıq da, qəzet və jurnal, radio və televiziya çıxışlarında aydın görünürdü. Təsadüfi deyil ki, Təhsil Nazirliyində uzun illər dərslik və nəşriyyat şöbəsinə rəhbərlik etdiyi zaman məktəblilər üçün hazırlanan dərsliklərin məzmunu, ideya-siyasi səviyyəsi, Azərbaycançılıq dəyərlərinin öz yerini tapması üçün çox çalışır, dərin elmi-nəzəri və praktik pedaqoji biliyinin səviyyəsi imkan verirdi ki, məktəblilər üçün dərsliklər müasir tələblər səviyyəsində hazırlansın, gənc nəslin həyat yolunu nurlandıran, onun mənəvi aləmini zənginləşdirən, xalqımıza layiq gələcək nəsillər yetişdirilməsi nəşr edilmiş dərsliklərin məğzində dayansın. Ona görə də müəlliflərə və nəşriyyat işçilərinə Nəcəf Nəcəfovun özünə məxsus yüksək tələbkarlığı var idi. Nəcəf müəllim bu ideyaları eyni zamanda Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetində tələbələrə-gələcəyin müəllimlərinə aşılayırdı. Bir neçə dərsliklərin müəllifi olan metodist-alim, ümumtəhsil məktəblərinin VII sinifləri üçün "Azərbaycan dili", IX sinifləri üçün "Ədəbiyyat", Azərbaycan və rus dilində olan ümumtəhsil məktəblərinin VIII-XI sinifləri üçün "İnsan və cəmiyyət" fənnlərinin məzmununun müəyyənləşdirilməsində, müasir tələblərə cavab verən dərsliklər hazırlanmazı onun gərgin zəhmətinin bəhrəsi idi. O, həm də ali məktəblər üçün "XX əsr Azərbaycan ədəbiyyatşünaslığı məsələləri" dərs vəsaitinin müəllifi idi. Görkəmli pedaqoq Nəcəf Nəcəfovun elmi redaktorluğu ilə 12 monoqrafiya, çoxsaylı dərslik və dərs vəsaitləri nəşr edilmişdir. Onun təhsilin idarə edilməsi, insan resurslarının yeniləşdirilməsi, dərsliklərin planlaşdırılması mövzularında bir sıra beynəlxalq konfranslardakı məruzələri dərin rəğbətlə qarşılanmışdır.

Nəcəf müəllimin həyat yoluna nəzər salanda o, ünlü bir yaradıcılıqla zəngin, özünün yüksək elmi bilikləri və insani keyfiyyətləri ilə cilalanmış, ziyalılarımıza bir örnək olan keçdiyi ömür yolu gözlərimiz qarşısında canlanır. Görkəmli pedaqoq, akademik Mehdi Mehdizadənin Maarif və Təhsil Nazirliyinə rəhbərlik etdiyi illərdə çalışdığı olduqca məsul vəzifələrdə keçdiyi həyat məktəbi Nəcəf Nəcəfovun gələcək həyat və fəaliyyətinin məhək daşı idi. Təhsil Nazirliyinin müavini, uzun illər Kadrlar İdarəsinin rəisi, Təhsil problemləri üzrə Respublika Elmi Metodiki Mərkəzin direktoru, "Azərbaycan məktəbi" jurnalının baş redaktoru və bir sıra məsul vəzifələrdə çalışan Nəcəf müəllimin yaradıcılığı məhz zəngin və çoxsahəlidir. Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin fəal üzvlərindən olan "Qızıl-qələm" mükafatı laureatı Nəcəf müəllimin 100-dən artıq elmi-metodik və publisistik məqalələri çap olunub. O, XX əsr Azərbaycan ədəbiyyatşünaslığın tədqiqatçılarından biri idi. "Salman Mümtazın ədəbi və elmi fəaliyyəti" mövzusunda müdafiə etdiyi namizədlik dissertasiyasını genişləndirərək, ona yeni çalarlar əlavə etmiş, doktorluq işini başa çatdırmaqda idi.

Kitab elə bir kəhkəşandır ki, onun nuru zaman-zaman nəsillərə yol göstərir, həyatın mənasını aşılayır. İnsan həyatı boyu yol ayrıclarında qərar tutur, düzgün seçim etmək zorunda qalır. Həyatın bu yol ayrıcları görəsən onu hansı təlatümlü dünyaya atacaq, həyat burulğanlarında ələyəcək, olaylardan keçirəcək. Öz həyatının mənasını nədə görürsən?! Səndən sonra həyatda hansı xatirələr, izlər qalacaqdır? Müdriklər demişlər ki, "Ölməz o adamdır ki, ondan sonra Vətən üçün böyük və faydalı yadigarlar qalsın". Görkəmli filosof Heygel demişdir ki, "İnsanın vəzifə borcu dörd növə bölünür:

**1. Özü qarşısında,**
**2. Ailəsi qarşısında;**
**3. Dövlət qarşısında;**
**4. Başqa insanlar qarşısında".**

Nəcəf müəllim bu vətəndaşlıq borcunu həmişə ləyaqətlə, şərəflə yerinə yetirmişdir.

El arasında belə bir deyim var: "Dağların əzəmətini qayalar göstərir, meşələrin möhtəşəmliyinin rəmzi göylərə baş vuran çinar ağaclarıdır. Bunların hər ikisi isə kökdən mayalanır". Öz nəsil ənənələrinə, boya-başa çatdığı indiki Qərbi Azərbaycan adlanan diyarın Oxçuoğlu kəndində Həsən kişinin ailəsində boya-başa çatmış Nəcəf müəllim də belə şah palıd əzəməti, görkəmli pedaqoji, ictimai-siyasi və ədəbi fəaliyyəti ilə seçilən və adı həmişə iftixarla xatırlanan böyük insanlardan biri idi.

Təsadüfi deyil ki, təbiət gözəlliyi, yüksək mənəviyyatlı insanların, istedadlı gənclərin vurğunu olan əziz dost, səmimi insan Nəcəf müəllim deyirdi ki, təbiət gözəlliklərini yaradan düşüncə kimi insanlar da müdrik olmalıdırlar. Ağsaqqallarımız söz sahibi olan ziyalılarımız, xüsusi ilə geniş təbliğat, təşviqat imkanları olan radio-televiziya, dövrü mətbuat, digər kütləvi informasiya vasitələri mənəvi dəyərlərimizin təbliği və gənc nəslə ətraflı izah edilməsi işlərinin fövqündə olmalıdırlar. Azərbaycan Ana radio və televiziyasında vaxtaşırı qarşılaşardıq. İntellektual, dövrün və zamanın aktual problemlərinə həsr edilmiş, eyni zamanda yazıçı və jurnalistlərin ədəbi yaradıcılığından bəhs edən verilişlərdə çıxışlarımızla bağlı deyiləsi sözlərimiz çox idi. Özü böyük vətənpərvər bir insan olan Nəcəf müəllim mənfur düşmənlərimizin təzyiqi nəticəsində məcburi köçkün olmuş Qərbi azərbaycanlıların tarixi, həyat və fəaliyyəti, onların məişəti, dəyərli ziyalıları, elm xadimləri barədə dəyərli məlumatlar və verilişlər hazırlanan "O kənd bizim kəndimizdir" proqramının yaradıcılarından biri olmuşdur. Vaxtaşırı radio və televiziya kanallarında çıxış edən Nəcəf müəllimin radio və televiziyanın tanınmış jurnalistləri Bəxtiyar Bəxtiyarov, Mahəddin Əsgər, bir sıra elmi-publisistik verilişlərin redaktorları ilə sıx yaradıcılıq əlaqələri vardı.

**Əziz dost, gözəl həyat müəllimimiz, dəyərli, ziyalı, tanınmış şəxsiyyət olan Nəcəf Nəcəfov barəsində keçmiş zamanda danışmaq şəxsən mənim üçün çox ağırdır. Bu böyük şəxsiyyətin həyat yolunu davam etdirən ziyalı övladları - tanınmış kardioloq-həkim Ruslan Nəcəfov, dəyərli ziyalımız Eldəniz Nəcəfov, gənc alim Elnarə Məmmədova, Bakı Dövlət Universitetinin müəllimi Aybəniz Nəcəfova şəxsində yenə də xalqımızın dəyərli ziyalısı, görkəmli alim və mütəfəkkir jurnalist, ünlü qələm sahibi Nəcəf müəllim ideyalarını həyata keçirməyə çalışır, xalqımızın gələcəyi olan gənclərin təlim-tərbiyəsində, insanların sağlamlığı keşiyində ön sırada dayanmışlar. Nəcəf müəllimin istedadlı nəvələri oxuduqları təhsil ocaqlarında elmi bilikləri ilə fərqlənirlər. Həyat davam edir... Nəcəf Nəcəfov kimi xalqımızın istedadlı, nurlu, işıqlı, zəkalı oğlunun arzuları Azərbaycanımızın inkişaf yollarında öz bəhrəsini verir.**

**Oqtay ƏLİYEV,**
**Yazıçı - Jurnalist**